# Qazi qardaşlar: Vətən üçün hər şeyə hazır idik

***Vətən müharibəsi qazisi olan Quba rayon Alpan kənd sakini, XTQ giziri Cavad Babayev haqqında qısa məlumatla başlayaq: 1990-cı il təvəllüdlü Babayev Cavad Nasir oğlu 2012-ci ilin noyabr ayında ASQ TTM gizir hazırlıq kursuna daxil olub. Altı aylıq kursu keçdikdən sonra ona Lənkəranda gizir hərbi rütbəsi verilib və kəşfiyyat tağım komandirinin müavini vəzifəsində çalışıb. Buradakı dörd aylıq xidmətindən sonra XTQ kursunu da müvəffəqiyyətlə başa vuran C.Babayev 2014-cü ildən bu günə qədər Xüsusi Təyinatlı kəşfiyyatçı kimi hərbi xidmətini davam etdirir. Onun 2016-cı ilin aprel ayında Lələtəpə uğrunda gedən döyüşlərdə mühüm xidmətləri olub.***

Qazimiz gizir C.Babayevin keçdiyi şərəfli hərb yolunun bir qismini öz dilindən eşidək: İlin əvvəlindən ciddi hərbi təlimlərə cəlb edilmişdik. Real döyüş şəraitində qarşılaşa biləcəyimiz bütün əməliyyatları bu təlimlərdə öyrəndik. Bu müddət ərzində çətin relyefə malik ərazilərdə yüksək səviyyəli döyüş hazırlığı keçdik.

2020-ci il senytabrın 27-si əks-hücüm əməliyyatları başlayan kimi Araz çayı kənarından düşmən mövqelərini məhv etmək tapşırığı aldıq. Ayrı-ayrı qruplar halında hərəkət edərək düşmənə məxsus çoxlu sayda canlı qüvvə və avtomobil texnikalarını, minaatan qurğularını məhv etdik. Oktyabr ayının 3-dən 4-ünə keçən gecə Cəbrayıl istiqamətinə yaxınlaşdıq. Yüksək dağlıq ərazidən düşmən bölmələri bizə atəş açmağa başladı.

Gecəni gözləyərək onlara hücum edib yerləşdikləri strateji yüksəkliyi azad etdik. Burada onların 8 nəfər canlı qüvvəsini və Televiziya qülləsini qoruyan tankını məhv etdik, digər qüvvələr isə qaçmağa başladı. Buranı 3 gün qorumalı idik. Əldə etdiyimiz yüksəkliyi Quru qoşunlarımıza təhvil verdikdən sonra qızğın döyüşlərin getdiyi Füzuli istiqamətinə yönəldik. Bu ərazidə düşmən 18-ci MAD, 1-ci, 2-ci və 9-cu alay, 41-ci artilleriya alayı, radioelektron mübarizə və digər müxtəlif bölmələrdən istifadə edərək güclü şəkildə qorunmağa çalışırdı. Füzulidə yerləşən mövqelərinə çoxlu sayda texnika və hərbi qüvvə yığan düşmən 27 km-lik tuneldən də aktiv istifadə edərək ağır texnikalardan atəş açırdı.

Oktyabrın 7-si gecə saatlarında Füzuli-Hadrut yolunu tutmalı idik. Hərəkət yolumuz üzərində düşmən snayperləri ( bir-birindən 5-6 m aralı) və onların arxasındakı təpəlikdə 15 nəfərlik bölmə bizi gözləyirmiş. Burada əsl möcüzə yaşandı. Öncü nəzarətçi qrupumuz əraziyə uyğun olmayan görüntü sezir və bunların yerdə uzanmış snayperçilər olduğunu öyrənirlər. Bu snayperlərdən ikisini məhv etdik, üçüncüsü isə oyanaraq qumbara atarkən vuruldu, lakin partlayış səsindən duyuq düşən digər erməni bölməsi bizə atəş açmağa başladı. Arxada yerləşmiş həmin düşmən bölməsi üzərinə hərəkət edərək onların 5-ni məhv etdik. Digərləri isə qaçaraq kəndi tərk etdilər.

Gecə ilə meşənin içərisində mövqe tutduq. Növbəti tapşırığı gözləməyə başladıq. Ayın 10-u səhər saat 11-də Gorazıllı kəndinə girmək üçün əmr gəldi: Kəndi almaq və Horadiz-Füzuli-Hadrut yolunu tutaraq buradan keçmək istəyən düşmən bölmələrini pusquya salaraq məhv etmək. Yaşayış məntəqəsinə girərkən iki erməni mülki şəxsi bizə tərəf atəş açmağa başladı, onları da zərərsizləşdirərək Gorazıllıya daxil olduq. Ayın 11-i günorta saatlarınadək düşmənin 10-a yaxın yüngül texnikasını pusqu ilə zərərsizləşdirərək y*olu 'təmizlədik'.*

***Yerə döşənmiş tank və piyada əleyhinə minalardan duyuq düşən düşmən qüvvələri istiqamətini dəyişərək 3 kamazla bizim olduğumuz kəndə tərəf döndü. Həmin vaxt şəxsi heyətimiz (133 nəfərdən şəhid və yaralılarımızı çıxdıqdan sonra) cəmi 63 nəfər qalmışdıq. Tabor komandirinin əmrinə əsasən kamazlar vurulmalı idi. RPG-7 ilə dərhal kamazlardan biri vuruldu, lakin digər iki maşın heyətlə birlikdə meşəyə girməyə imkan tapdı. Üç istiqamətdən hərəkət edərək düşməni məhv etmək əmri verildi. Onları meşənin çıxacağına sıxışdırdıq ki, açıq əraziyə çıxsınlar və orada məhv edək. Elə də oldu, onlar bir təpənin arxasına sıxışıb qaldılar.***

Mərkəz istiqamətdən arxı keçərək düşmənə 10-15 m məsafə qədər yaxınlaşmışdıq. Yoldaşlarıma xəbərdarlıq edərək F1 əl qumbaralarından istifadə etməyə başladım. Atılan qəlpəli əl qumbaraları düşmənin canlı qüvvəsinin tam ortasına düşür, bunun haradan gəldiyini bilməyən düşmən vahimə və qorxudan pərən-pərən dağılışdı. Dərhal fürsətdən istifadə edərək başını itirmiş düşmənə avtomat silahlardan atəş açmağa başladıq. Daha yaxşı mövqedə olduğumuz üçün mən və döyüş yoldaşım gizir R.Məmmədov bizə ötürülən qumbaraları növbə ilə düşmənin toplaşdığı əraziyə atırdıq. Biz altı nəfər hərbçi, şərəfsiz erməni dığalarının 30-40 nəfərini məhv etmiş olduq. Qarşı tərəfdə aləm bir-birinə dəymişdi. 11-ci qumbaranı əlimə götürərkən işarə edildi ki, bu artıq sonuncudur. O üzdən də gözyaşardıcı qaz bombasından istifadə etdim...

Əlimdəki sonuncu qumbaranı atdıqdan sonra kaskama bir güllə dəydi və dərhal bunun uzaqdan bizi nişan almış snayper gülləsi olduğunu anladım. Qulağımın sol üst tərəfindən dəyən güllə kaskanın kənarını parçaladı. Tez özümü aşağı, arxın içinə atdım və yoldaşlarıma snayperin bizi izlədiyi haqqında məlumat verdim. Bir neçə saniyə sonra həmin istiqamətdən atılan güləylə gənc leytenantımız B.İslamov şəhid edildi. Sən demə məndən sonra snayper onu nişan alıbmış. Yaxınlaşdım, elə bilirdim ki, yaralıdır (məkanı cənnət olsun). Onun mərmilərini düşmənə qarşı istifadə etməyə başladım. Üzərindən 3-4 dəqiqə vaxt keçdi, ayağımdan dəyən qəfil güllə bütün bədənimi silkələdi. Ağrının şiddəti çox güclü idi. Topuqdan yuxarı hissədən güllə ayağımı parçalamışdı, həmin nahiyədə hissiyatım tamamilə itmişdi. Vəziyyətim barədə yoldaşlarıma məlumat verdim, ilkin tibbi yardım göstərildi. Təəssüf ki, ilk köməyimə çatan mərd tibb işçisi S.Ağayev də qısa müddət sonra xain düşmə gülləsinə hədəf oldu (məkanı cənnət olsun).

Təxminən 40 dəqiqə ərzində düşmən snayperi bizə olduğumuz yerdən çıxmağa imkan vermədi. Yaralı və şəhidlərimizlə orada gözləməli olduq. Biz döyüşü davam etdirə bilməsək də, sağ və sol cinahdan digər döyüş yoldaşlarımız düşmən üzərinə mərmi yağdırır, əl qumbaralarından istifadə edirdilər. Yoldaşlarımızın çevik əks həmləsi ilə düşmən ciddi itkilərə məruz qaldı. Biz də bu fürsətdən istifadə edərək düşmənin diqqətindən yayınıb 30 metrlik məsafəni sürünə-sürünə keçməklə meşəyə girə bildik. Bizim tərəfdən dörd hərbçi şəhid olmuşdu (onlardan biri dəyərli dostum, kapitan İ.Səmədov idi, məkanı cənnət olsun), düşmənin isə 100-dən çox canlı qüvvəsini məhv etdik və xeyli silah-sursatını ələ keçirdik...

Uca Tanrı köməyiniz və müzəffər Xalqımız duaçınız olsun, tezliklə sağlamlığınıza qovuşub Vətənə xidmətinizi davam etdirəsiz inşallah!




*Dərhal fürsətdən istifadə edərək başını itirmiş düşmənə avtomat silahlardan atəş açmağa başladıq. Daha yaxşı mövqedə olduğumuz üçün mən və döyüş yoldaşım gizir R.Məmmədov bizə ötürülən qumbaraları növbə ilə düşmənin toplaşdığı əraziyə atırdıq. Biz altı nəfər hərbçi, şərəfsiz erməni dığalarının 30-40 nəfərini məhv etmiş olduq. Qarşı tərəfdə aləm bir-birinə dəymişdi. 11-ci qumbaranı əlimə götürərkən işarə edildi ki, bu artıq sonuncudur. O üzdən də gözyaşardıcı qaz bombasından istifadə etdim...*

Vətən müharibəsi qazisi gizir Babayev Murad Nasir oğlu 1987-ci ildə Quba rayonunun Alpan kəndində dünyaya göz açıb. Uşaq vaxtlarından hərb sənətinə olan marağı onun ASQ-də müddətdən artıq xidmətə, gizir kimi fəaliyyətə başlaması ilə nəticələnib. M.Babayev həm də aprel qazisidir. Onun 2016-cı il aprel döyüşlərində göstərdiyi igidliklər dövlətimiz, ordumuz tərəfindən qiymətləndirilib.

Cavadın böyük qardaşı olan gizir Murad Babayevin döyüş həyacanları öz dilindən: Əks-hücum əməliyyatlarına qədər bilirdik ki, düşmən dinc durmayacaq, nə vaxtsa yenə təxribatlara əl atacaq. İşğal altında olan torpaqlarımız, Qarabağ bizim yaramız idi, yəni gec-tez biz onu qaytarmalıydıq, bu bizim boynumuzda borc idi, bir namus, şərəf məsələsi idi. Ona görə də gecə-gündüz, qar-yağış, soyuq bilmədən var gücümüzlə hazırlaşırdıq ki, cənab Prezident bizə əmr verən kimi, Azərbaycan Silahlı Qüvvələri olaraq bu acını, yükü biz həm onun, həm də xalqımızın üzərindən götürək, xalqımızın üzünü ağ edək, 90-cı illərdə itirdiyimiz şəhidlərimizin qanı və başımıza gətirilən faciələrin qisası yerdə qalmasın.

*Cavadın böyük qardaşı olan gizir Murad Babayevin döyüş həyacanları öz dilindən: Əks-hücum əməliyyatlarına qədər bilirdik ki, düşmən dinc durmayacaq, nə vaxtsa yenə təxribatlara əl atacaq. İşğal altında olan torpaqlarımız, Qarabağ bizim yaramız idi, yəni gec-tez biz onu qaytarmalıydıq, bu bizim boynumuzda borc idi, bir namus, şərəf məsələsi idi. Ona görə də gecə-gündüz, qar-yağış, soyuq bilmədən var gücümüzlə hazırlaşırdıq ki, cənab Prezident bizə əmr verən kimi, Azərbaycan Silahlı Qüvvələri olaraq bu acını, yükü biz həm onun, həm də xalqımızın üzərindən götürək, xalqımızın üzünü ağ edək, 90-cı illərdə itirdiyimiz şəhidlərimizin qanı və başımıza gətirilən faciələrin qisası yerdə qalmasın*

### İnanılmaz döyüş ruhu: təki Şuşaya qədər gedə biləydim

O qədər ağırdır ki, mənə bu barədə danışmaq. Hər dəfə döyüş yoldaşlarım yadıma düşəndə inanın ki, gecələr yatanda, gözümü yumanda o vəziyyət, o kadrlar gəlir gözümün önünə. Əsgərlərimiz, zabitlərimiz, şəxsən mənim özüm də Allaha dua edirdik ki, bircə Şuşaya qədər gedək. Özlüyümdə düşünürdüm, təki Şuşaya qədər mənə heç nə olmasın, nə olursa olsun, Şuşada olsun. Bircə Şuşaya çatım, mənim uşaqlıq arzum olub ki, Şuşaya gedim, ən azından oranı görüm. Düzdür, həmin vaxt qismət olmadı, ağır yaralandım, ancaq şükürlər olsun ki, Allah hifz etdi, inşaallah hamı kimi mən də gedəcəm Şuşaya.

***Şükürlər olsun ki, ordumuz o qədər güclüydü, o qədər ruh yüksəkliyi var idi, bilirdik ki əslində biz ölmürük, çünki vətən şəhidləri ölməz. Hamı deyirdi ki, şəhid olacam, çək şəklimi baş daşıma vurarsız, nə şəhidliyə yaraşan şəkildi... Hamıda bir yəqinlik, bir rahatlıq vardı elə bil: şəhidliyə namizəd olmaq əhval-ruhiyyəsi. O sözləri deyən dostlarımın əksəriyyəti şəhid oldular (məkanları cənnət olsun). Hər gün bu xatirlərlə yaşayıram. Nə yediyimi bilirəm, nə içdiyimi. Çünki dost itirmək, bu başqa bir şeydir. Bu qardaş deyil, qardaşdan ötəsidir. Silahdaşlıq, bu başqa bir hissdir...***

(davamı gələn sayımızda)